**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 yanvar 2015-ci il tarixli 150 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən Birinci Şıxlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Məmmədov Telman Nizaməddin oğlu 2015-ci il yanvarın 9-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına 107 saylı Qazax seçki dairəsi dairə seçki komissiyasının 28 dekabr 2014-cü il tarixli 81/217 saylı qərarından şikayət verərək həmin qərarın ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

107 saylı Qazax seçki dairəsindən Birinci Şıxlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd T.N.Məmmədov səsvermə günü 26 saylı seçki məntəqəsində ehtimal olunan qanun pozuntuları barədə 25 dekabr 2014-cü ildə Mərkəzi Seçki Komissiyasına müraciət etmiş, həmin müraciət Mərkəzi Seçki Komissiyasının 26 dekabr 2014-cü il tarixli 18/116 saylı qərarı ilə şikayət qismən təmin edilərək səslərin təkrar hesablanması və qanun pozuntularının araşdırılması üçün 107 saylı Qazax seçki dairəsinin dairə seçki komissiyasına göndərilmişdir. Həmin dairə seçki komissiyası tərəfindən 28 dekabr 2014-cü ildə mübahisələndirilən seçki məntəqəsi üzrə səslərin təkrar hesablanması prosesi həyata keçirilmiş və 81/217 saylı qərar qəbul edilmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsi üzrə 26 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının protokolundakı səsvermənin nəticələri səslərin təkrar hesablanmasına dair dairə seçki komissiyasının müvafiq protokolunda əks olunan nəticələrlə eynidir.

Bundan başqa səslərin təkrar hesablanması prosesini birbaşa müşahidə etmiş 26 saylı məntəqə seçki komissiyasının üzvləri F.S.Daşdəmirov, O.N.Allahverənov, M.M.Zamanov, B.K.Musayev, B.K.Hüseynov, Birinci Şıxlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış, lakin kifayət qədər səs toplamamış namizədlər S.N.Məmmədov, İ.T.Hümbətov, N.B.Həsənov, İ.V.Bayramov, müşahidəçilər T.K.Omarova, L.S.Omarova, C.M.Qurbanova tərəfindən verilmiş izahatlara və tərtib edilmiş aktlara əsasən səslərin təkrar hesablanması prosesi Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydada həyata keçirilmiş və məntəqə seçki komissiyasının səsvermənin nəticələri haqqında protokolu ilə səslərin təkrar hesablanmasına dair dairə seçki komissiyasının protokolu arasında uyğunsuzluq aşkar edilməmişdir.

Müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması ilə şikayətin təmin edilməsi və dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi üçün hüquqi əsaslar müəyyən edilməmişdir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin

verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən Birinci Şıxlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Məmmədov Telman Nizaməddin oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 yanvar 2015-ci il tarixli 150 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin dairə seçki komissiyasının 28 dekabr 2014-cü il tarixli 81/217 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov